**Cənubi Qafqazın aparıcı dövləti və bölgədə sabitləşdirici rol oynayan əsas aktor kimi Azərbaycan beynəlxalq ictimaiyyətin yüksək etimadını qazanmış, qlobal miqyasda etibarlı tərəfdaş olaraq tanınmışdır. Milli maraqlara söykənən, müstəqil, praqmatik və çoxvektorlu xarici siyasət kursu sayəsində ölkəmizin beynəlxalq nüfuzu artır. Azərbaycan ikitərəfli münasibətlər kontekstində, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli, qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq formatlarını uğurla həyata keçirir. Xarici siyasətdə milli maraqlar və beynəlxalq hüquq prinsipləri ilə yanaşı, sülh, sabitlik, inkişaf və konstruktiv tərəfdaşlıq kimi fundamental dəyərlər əsas götürülür və bu yanaşma Azərbaycanın beynəlxalq münasibətlər sisteminə daha mütərəqqi və balanslı töhfələr verməsinə şərait yaradır.**

# Enerji strategiyasının dinamik transformasiyası

Ölkəmizin təşəbbüsü və liderliyi ilə Cənubi Qafqazda dayanıqlı və şaxələndirilmiş enerji dəhlizlərinin formalaşdırılması regionun geoiqtisadi mənzərəsini əhəmiyyətli dərəcədə dəyişmişdir. Bu gün Azərbaycanın iştirakı olmadan regionda hər hansı ciddi enerji təşəbbüsünün reallaşması mümkün deyil. Bu, ölkənin formalaşdırdığı etibarlı tərəfdaş imicinin və ardıcıl enerji siyasətinin məntiqi nəticəsidir. Azərbaycanın yürütdüyü praqmatik enerji siyasəti təkcə iqtisadi maraqlara xidmət etmir, eyni zamanda regionda sabitlik və təhlükəsizliyin təmin olunmasına, qarşılıqlı etimada əsaslanan əməkdaşlıq mühitinin gücləndirilməsinə töhfə verir. Xarici investisiyaların artması, yeni əməkdaşlıq mexanizmlərinin qurulması, enerji resurslarının təhlükəsiz və səmərəli marşrutlar vasitəsilə dünya bazarlarına çatdırılması bu çoxşaxəli strategiyanın təzahürüdür. Prezident İlham Əliyev regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasının 3-cü ilinin yekunlarına həsr olunmuş konfransda ölkənin enerji siyasətinə dair mühüm fikirlər səsləndirmişdi. Dövlət başçısı Azərbaycanın həm neft, həm də təbii qaz ixrac edən ölkəyə çevrildiyini vurğulayaraq qeyd etmişdi ki, qaz ixracı baxımından Azərbaycanın əhəmiyyəti getdikcə daha da artır. Qaz ehtiyatlarımız Avropa üçün mühüm enerji mənbəyinə çevrilib. Prezident həmçinin bildirmişdi ki, Azərbaycan artıq bir çox qonşu dövlətlərə təbii qaz nəql edir və ixrac həcmlərinin artacağı da gözlənilir. Bu kontekstdə Azərbaycan həm resurs sahibi, həm də müstəqil enerji siyasəti yürüdən ixracatçı ölkə kimi öz maraqlarını müdafiə edir, eyni zamanda istehlakçıların maraqlarını da nəzərə alır. Mövcud şəraitdə dünya üzrə qaz ehtiyatlarının tədricən azalması və yeni yataqların kifayət qədər sürətlə kəşf olunmaması fonunda təbii qaza olan tələbat durmadan artır. Əhali sayının artması və sənayeləşmənin geniş vüsət alması da bu tələbatı daha da gücləndirir. Belə bir məqamda Azərbaycanın ərazisində qaz və kondensat ehtiyatlarının aşkar edilməsi və onların sənaye səviyyəsində işlənməsi strateji baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, ölkənin ən iri qaz yataqlarından biri olan "Şahdəniz"in rolu xüsusilə vurğulanmalıdır. Müasir dövrdə Azərbaycanın təbii qaz ixracının əsas hissəsi Xəzər dənizində yerləşən və strateji əhəmiyyətə malik "Şahdəniz" yatağından əldə olunur.

2007-ci ilin iyul ayında "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən təbii qazın Bakı-Tbilisi-Ərzurum marşrutu ilə Türkiyə sərhədini aşaraq qardaş ölkənin qaz sisteminə daxil olması Azərbaycanın Avropa enerji arxitekturasına real inteqrasiyasının başlanğıcı idi. Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Azərbaycan özünü regional resurs mərkəzi, həm də qlobal enerji təhlükəsizliyinin formalaşmasında iştirak edən geosiyasi aktor kimi təqdim etdi. Bakı-Tbilisi-Ərzurum boru kəməri regional güc balansının tənzimləyicisidir. Bu kəmərin fəaliyyəti Azərbaycana iqtisadi dividendlər, həm də strateji üstünlük gətirir. Ümumi uzunluğu 980 kilometr, diametri isə 42 düym olan boru kəməri ildə 20 milyard kubmetrə qədər ötürmə gücünə malikdir. Layihənin reallaşdırılması Azərbaycanın transmilli enerji siyasətinin ilk əsas pilləsi olmaqla yanaşı, regionda formalaşmaqda olan enerji arxitekturasının təməlini qoydu.

Bu infrastrukturun istifadəyə verilməsi istər texniki, istərsə də siyasi baxımdan dönüş nöqtəsi idi. "Şahdəniz" kimi nəhəng bir yatağın istismarının məhz bu kəmər olmadan mümkünsüzlüyü onu Azərbaycanın enerji strategiyasında həlledici halqaya çevirmişdi. Dəhlizin təməl seqmentlərindən biri olan TANAP (Trans Anadolu Qaz Boru Kəməri) layihəsi 2012-ci ildə İstanbulda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə imzalanan razılaşma ilə rəsmiləşdi. Bu əməkdaşlıq regionda enerji üzrə siyasi inteqrasiyanın yeni mərhələsinə yol açdı. 2018-ci il mayın 29-da Səngəçal terminalında Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ, Böyük Britaniya, Avropa İttifaqı və bir sıra digər ölkələrin yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirildi. Bu tədbir layihənin yalnız enerji layihəsi deyil, həm də strateji əməkdaşlıq platforması olduğunu nümayiş etdirdi. Həmin ilin 12 iyun tarixində isə TANAP qaz kəmərinin Əskişəhərdə keçirilən təntənəli açılış mərasimi Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən birinin istifadəyə verilməsi ilə yadda qaldı. Hazırda diqqət layihənin Avropaya çıxış nöqtəsi olan TAP - Trans Adriatik Boru Kəməri üzərində cəmləşib. TAP layihəsi TANAP-ın davamı kimi reallaşdırılır və Yunanıstan, Albaniya və İtaliya ərazisindən keçməklə Azərbaycan qazının birbaşa Avropa İttifaqı bazarlarına çatdırılmasını nəzərdə tutur. 2020-ci ilə qədər TAP üzrə nəzərdə tutulan işlərin böyük əksəriyyəti - təxminən 87 faizi tamamlanmışdı və layihə üzrə ilk qazın Avropaya nəqli həmin il üçün planlaşdırılmışdı. Bütün bu mərhələlər bir daha göstərir ki, Azərbaycan yalnız enerji resurslarına malik olan ölkə, eyni zamanda bu resursların təhlükəsiz və səmərəli şəkildə dünya bazarlarına çıxarılmasını təmin edən strateji oyunçudur. Enerji daşıyıcılarının hərəkəti siyasi mövqe ilə düz mütənasibdir. Beləliklə, ölkəmiz marşrutları şaxələndirməklə riskləri minimuma endirdi və enerji təhlükəsizliyi ilə siyasi sabitlik arasında yeni bir geosiyasi model qurdu. Azərbaycanın təşəbbüskarı olduğu boru kəmərləri Qərb üçün alternativ enerji mənbəyi, region üçün isə siyasi müstəqillik deməkdir. Bu reallıq isə ölkəmizin strateji mövqeyini möhkəmləndirir.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**